# Mətnin formalaşmasında terminlərin rolu

**Fatma Yusifli**
*Bakı Qızlar Universiteti*
**E-mail:** fat.isayeva2015@yandex.ru

**Rəyçilər:** filol.ü.f.d, dos.T.Ç. Şükürlü,
filol.ü.f.d., dos. T.R. İsmayilova

**Açar sözlər:** mətn, termin, mətndaxili əlaqə, bədii mətn, elm, əlaqə
**Ключевые слова:** текст, термин, внутретекстовая связь, художественный текст, терминообразующий, наука, связь
**Key words:** text, term, intertext connection, art text, science, connection

Azərbaycan dilçiliyində mətn sintaksisinin müxtəlif səviyyədə öyrənilməsi problemi XX əsrin ortalarından sonra sürətlənmişdir. Dilçiliyin bu yeni sahəsi son qərinəsindən bütün təfərrüatları ilə bir linqvistik elm sahəsi olaraq formalaşmışdır.

Mətnin bütövlüyü deyəndə onun məzmun vahidliyi, məna vəhdəti, komponentlərin qarşılıqlı münasibətlərində yaranan əlaqə üsulları, quruluş qapalılığı, əlaqə üsullarının dərinliyi və çoxtərəfliliyi, mətndaxili qrammatik və leksik vahidlərin açar söz və cümlələrin varlığı, onların rəngarəng vasitələrlə dəyişmə resurslarının olması nəzərdə tutulur.

Mətnin bütövlüyü formal-qrammatik, struktur-semantik və məntiqi-semantik qanunauyğunluğun yekunu kimi meydana çıxır. Kamal Abdullanın və Kamil Vəli Nərimanoğlunun təbirincə desək, mətn bir mənzərəni əhvalatı, mətləbi təzahür etdirir və oradakı cümlələr ayrı-ayrı hissələr kimi müəyyən bir bütövü əmələ gətirir (11, 542).

Mətnlər eyni zamanda mikro və makro mətnlərə ayrılır. Dilçiliyin obyekti olan mətni və mətn dilçiliyinin obyekti olan mətni bir-birindən fərqləndirmək lazımdır. Dilçilik nöqteyi-nəzərindən ən müxtəlif profilli mətnlər tədqiqata cəlb oluna bilər və onların tədqiqedilmə aspektləri də müxtəlif ola bilər (2, 222).

Mətn dilçiliyi sahəsindəki tədqiqatlar əsasən iki aspektdə aparılır:

Birinci aspekt mətn qurulmasının ümumi qanunauyğunluqlarını üzə çıxarmaq məqsədilə aparılan təhlillərdir. Belə təhlil zamanı mətn dilçiliyinin obyekti kimi tekstema götürülür. Tekstema - "fonema", "morfema", "leksema", "frazema" ilə analogiyada yaranan termin olub, işarə etdiyi vahidin nitq səviyyəsinə deyil, dil səviyyəsinə aid olduğunu göstərir.

İkinci aspekt tekstemanın aktuallaşması ilə bağlıdır, yəni konkret qarşıya qoyulan müəyyən bədii, elmi profilli mətn kəsiyinin linqvo-üslublu statusunun təyin edilməsi ilə bağlıdır.

Mətni həmin aspektlərdən öyrənərkən, qarşıya müəyyən çətinliklər də çıxır. Mətni də eyni ilə cümlə kimi başlanğıc orta və son mərhələlərə bölərək öyrənmək lazım gəlir. Mətnin baslanğıc hissəsi bütün mətnin əsas tematik düyününə çevrilir. Yəni bu başlanğıc cümlə quruluşundakı mübtədanın, subyekt ideyasının yerinə yetirdiyi funksiyanı reallaşdırır. Mətnin bu başlanğıc hissəsi mətnin qurulma prosesində həm orta, həm də son mərhələdə eksplisit (açıq) və implisit (gizli) şəkildə təkrar oluna bilər.

Hər bir mətnə xas komponentlər mövcuddur. Sintaktik bütövlərin tərkibində cümlələr müxtəlif vasitələrlə əlaqələnir. Sintaktik bütövlərin tərtibi fikrin açıq və gizli ifadəsi əsasında mümkün olur. Sintaktik bütövlərdə fikir və hər bir bitmiş fikrin təfərrüatları əksərən real

şəkildə müxtəlif nitq vasitələri ilə ifadə olunur (eksplisit ifadə tərzi) lakin bir çox məsələlər mətnin əvvəlki və ya sonrakı cümlələrinə situasiyaya əsaslandığından mətnin gedişində təsəvvür edilir, dil vasitələri ilə öz ifadəsini tapa bilmir və bir növ gizli verilmiş olur (implisit ifadə tərzi). Hər iki forma mikrotemanın açılışına xidmət edir.

Cümlənin konteksdən kənar gizli mənası presuppozisional mənadır. Prezuppozisional məna kontekst və situasiya ilə müəyyənləşir. Fikrin presuppozisional ifadəsi fikrin implisit ifadə tərzidir (10, 440).

Sintaktik bütövlərin komponentlərini əlaqələndirən iki əlaqə üsulu: zəncirvari və paralel əlaqələr hamı tərəfindən qəbul edilir. Zəncirvari əlaqənin əsas xüsusiyyəti budur ki, əvvəl gələn cümlənin mövzusu sonrakı cümlənin mövzusu kimi çıxış edir. Bu qayda sintaktik bütöv boyu davam edir. Bu prosesdə əsas rolu təkrarlar oynayır. Zəncirvari əlaqə təkrarların, sinonim sözlərin və əvəzliklərin köməyi ilə formalaşır.

Mətni yalnız dilçilik deyil, həmçinin digər elm sahələri -ədəbiyyatşünaslıq, üslubiyyat, sosiologiya da tədqiq edir. Dilçilikdə mətnə hazır məhsul, nitq-əqli prosesin nəticəsi kimi baxılır. "Mətn" termininin bir neçə işləm növü var. Bir tərəfdən mətn anlayışı danışanın fikrinə əsasən özlərində bitmiş mənanı ehtiva edən bir və yaxud bir neçə cümlədən ibarət hər hansı bir söyləmi təyin etmək üçün işlənir. Digər tərəfdən isə, bu terminlə hekayə, roman məqalə və s kimi nitq əsərlərini adlandırırlar (6, 7).

Mətndaxili əlaqələr, onların struktur semantik parametrləri mətn dilçiliyi üçün əsasdır. Mətndaxili əlaqəliliyi təmin edən vasitələrin öyrənilməsinə bir çox tədqiqatlar həsr olunub. T. Nikolayeva üç əsas mətnyaradıcı vasitə ayırır: 1) söz sırası 2) intonasiya 3) mətn münasibətlərinin eksplisit seqment göstəriciləri – xidməti xarakterli "xırda sözlər" (7, 26).

Ümumiyyətlə, mətn yaranmasında aşağıdakı formal əlaqə vasitələri iştirak edir:

1. Fonetik təkrar – bura alliterasiya, assonans kimi bədii üslubi üsullar daxildir.
2. Morfoloji təkrar – cins, zaman, hal kateqoriyası əlamətlərinin təkrarı
3. Leksik təkrar – sözlərin tam, natamam, yəni müxtəlif qrammatik formalarda olan təkrarı və sıfır təkrarı
4. Sintaktik təkrar – söz sırasının tam və natamam təkrarı xiazm və s.
5. Leksik-qrammatik vasitələr – bağlayıcılar, önsözlər, determinantlar və s.
6. Deyktik elementlər – müxtəlif tipli əvəzliklər, artikllar və s.

Bu formal əlaqə vasitələrinin mətn yaranmasında rolunu tədqiq etmək üçün makromətnə bütövlükdə baxmaq mümkün deyil. Bunun üçün makromətni daxili hissələrə müstəqil və əlaqəli mikromətnlərə bölmək zəruridir. Mikromətn dilçilikdə bu terminlərlə adlandırılır: mürəkkəb sintaktik bütöv, böyük sintaktik bütöv, frazafövqi vahid diskurs və s. (7, 27).

Sintaktik bütövlər komponent tərkibinə görə sadə, mürəkkəb ola bilər. Struktur-kompozisyon baxımdan isə mətn bu mərhələlər vasitəsilə yaranır: 1) başlanğıc 2) orta 3) son

Sadə mürəkkəb sintaktik bütövdə üç sadalanan mərhələnin hamısını müəyyən etmək mümkün deyil. Bu tip cümlələrdə yalnız başlanğıc və son mərhələləri ayırmaq olar.

Birinci mərhələnin, yəni başlanğıcın əsas xarakterik cəhəti budur ki, onun içindəki cümlə semantik-qrammatik bütövlüyə meyillidir. Başlanğıc kontekstin digər hissələri ilə müqayisədə daha müstəqildir. Onu mətnin kəskin başlanğıcı adlandırmaq olar.

Orta mərhələ isə başlanğıc hissədəki mətnin məzmununu açır.

Mətnin son mərhələsi onun sərhədlərinin ayrılmasına, eyni zamanda mətndəki məzmun və informasiyanın yekununa çevrilir.

Sadə mürəkkəb bütövdən fərqli olaraq mürəkkəb sintaktik bütöv bir sıra semantik əlaqələrin və onların formal əlaqə vasitələrinin mövcudluğu ilə seçilir.

Mətnin müəyyənləşdirilməsində həcmin heç bir rolu yoxdur. Əsas meyar onun koherentliyi və təbii ki verbal kommunikasiya zamanı istifadə oluna biləcəyidir.

Mətnlər məzmununa görə elmi, bədii, publisist mətnlərə ayrıla bilər. Biz isə məqalənin məzmununun açılışını, izahını bədii metnler üzərində işlədik.

Mətnlərin yaranmasında leksik vahidlər mühüm rol oynayır. Leksik vahidlər, yəni sözlər müxtəlif qruplara qruplara bölünür: Terminlər, ümumişlək sözlər, sinonimlər, omonimlər, antonimlər və s.

"Elm və texnikanın bu və ya digər sahəsinə aid dildə xüsusi funksiya daşıyan, anlayışı ifadə (işarə) edən söz, elmi dil vahidi termindir. Termin hər hansı müəyyən xüsusi sahə dairəsində anlayışı dəqiq təyin etmək və onu başqa anlayışlarla münasibətini müəyyən etməyə dəqiqləşdirməyə imkan verir. Həmçinin terminlər müəyyən sahə üçün xarakter olan əşya, hadisə, onların xassə və münasibətlərinin xüsusiləşdirici rolunu oynayır" (9, 4).

Göründüyü kimi, terminlər ən çox tədqiqat işi aparılan zaman ictimai-siyasi həyatda baş verən dəyişikliklərdən, həmçinin elmi-texniki, ictimai-siyasi ədəbiyyatların tərcüməsi prosesində yaranır. Çex dilçisi K. Soxorun apardığı hesablamalara görə, müasir dünya dillərində meydana gələn yeni sözlərin 90%-ni terminlər təşkil edir. Terminlər müxtəlif sahələrə aid ola bilər: tibb terminləri, dilçilik terminləri, hərbi terminlər, iqtisadi terminlər və s. Terminlər dilin leksik qatını təşkil edir. Mətnlərin yaranmasında terminlərin də spesifik funksiyası var.

Əbülhəsənin "Dünya qopur" romanından götürülmüş kiçik mətn parçasına diqqət yetirək. "Dünya qopur" romanında 20-ci illərin əvvəlində Azərbaycan kənd və qəsəbələrində ilk inqilabi tədbirlərin həyata keçirilməsi, tarixdə ilk dəfə olaraq kəndli kütlələrinin öz hüquq və taleyinin sahibi olması ictimai həyatdakı köhnəliklə yeniliyin toqquşması fonunda mükəmməl bədii inikasını tapmışdır.

"Yanğın lap sabaha yaxın genişlənib qabağı alınmayacaq dərəcəyə çatanda ancaq qəsəbə duyuq düşmüşdü, lakin bilən kimi də yanğını söndürmək üçün lazımlı tədbir görmək mümkün olmadı. Yuxudan kal oyananlar geyinib yanğın yerinə cumurdularsa da, hələ bir iş görə bilmirdilər. Çünki içəridə partlayan güllələr camaatı evə girməyə qoymurdu. Bir də axı içəri girib nə qayıracaqdılar? Yanğın dəli bir acıqla qəhqəhələr çəkib bütün şiddəti ilə davam edirdi. Alov darvaza qabağında duran adamın üzünü yandıra biləcək qədər şiddətli idi. Camaat Həmzənin zirzəmisindəki dövlətdən və buranın yetimxana şeyləri ilə dolu olduğundan xəbərdardır, lakin bunu yanğından qurtarmaq üçün əllərindən heç nə gəlmirdi. Od düşə biləcəyindən qorxan qonşular tələsik öz evlərini boşaldırdılar və sanki, getdikcə od böyüyür, genişlənir qabağına düşəni sümürə-sümürə irəliləyirdi.

— Ay, camaat, evin dal tərəfindən yan divarlardan gedin, oraları güllə tutmur.

Əzizin birdən-birə eşidilən bu sözləri bayaqdan bəri iflic kimi hərəkətsiz dayanan camaatın elə bil əlini, qolunu açdı, bir anda izdihamın içindən lapatkalı, külünglü belli, lomlu adamlar burulub evin yan və arxa divarları tərəfə keçdilər. İndi məqsəd bunları uçurub yanğının ətrafa yayılmasının qabağını kəsməkdi. Əzizin əmri ilə bir anda qəsəbədən onlarca külüng vuranlar da artdı. Onlar evin arxa və yan divarlarında od tutmuş qapı-pəncərələri taqqa-taqla uçurdub zərərsizləşdirməyə başladılar. Od-alov hələ müqavimət göstərirdisə də, kütlə çəkilməyirdi. Çınqıl torpaq vasitəsilə ən birinci olaraq yanğın qonşu evlər üçün zərərsizləşdirilirdi. Elə bu arada yağışın yağması yanğın söndürənlərin işini xeyli asanlaşdırdı. Yağış yanğınla odu söndürənlərin arasında elə bir sədd yaradırdı ki, bundan odun, alovun təsir gücü xeyli azalır, işləyənlər daha cürətli dururdular. Güllə səsi kəsildiyinə görə indi bir çoxları özünü oda alova vurub, yetimxana şeylərindən bacardığını xilas etməyə çalışırdı. İndi

böyük evin tavanı tökülməyə başlayırdı, atəş təslim olur, alovun dili qısalırdı."

✓ Mətndə işlənən yanğın sözü mətnyaradıcı funksiya yerinə yetirir, həmçinin nəzərdə tutulan vahid açar söz rolunu oynayır. Yanğın sözü bədii məkanda işlənib müxtəlif semantik komponentlər yaradıb. Dünyanın dil mənzərəsini dərk etmək üçün yanğın sözü mühüm rol oynayır. Süjet xətti, müəllifin niyyəti həmin söz vasitəsilə açılıb göstərilir. Müəlliflə hadisənin baş verməsi arasında münasibət bildirir. Yanğın sözünün mətndə adekvat xarakteri normal praqmatik və məntiqi inkişafı göstərir.

✓ Yanğın sözü mətnin bütün korpusunda funksionallaşır. Mətndə bu söz 10 dəfə işlənmişdir-təkrar edilmişdir. Təkrarlar mətndə period yaradır. Mətndə təkrarların olması heç də keyfiyyəti aşağı salaraq ləğv etmir əksinə emosionallığın artmasına gətirib çıxarır. Bəzən bir sıra əsərlərdə tez-tez təkrarlanan sözlər çox vaxt bir rəmz kimi çıxış edirlər. Bəzən isə qısa bir ifadə daxilində işlənən təkrarlar tamamilə bədii əhəmiyyət kəsb edirlər, yəni yalnız onların vasitəsilə müəllif öz fikrini oxucusuna istədiyi qədər emosional və qabarıq çatdıra bilmiş olur. Bu mətndə də yanğın sözü emosionallığı, fikrin ifadə gücünü, qabarıqlığını öz sinonimik ortaqları ilə (od, alov) daha da gücləndirir. Təkrarların başlıca xüsusiyyətlərindən biri də onların mətnin yaranma və formalaşmasında mühüm rol oynamasıdır. Mətn daxilində təkrar işləndikcə sanki bir xətt boyunca hərəkət edərək yenə də özünə qayıdaraq, nəhayət, mətni tamamlayır. Və period əmələ gətirir. Yanğın leksik vahidi mətndə periodik təkrar yaratmışdır.

✓ Bu mətn parçası yanğın hadisəsi haqqında məlumat verir, bu baxımdan mətn kommunikativ vahiddir.

✓ Yanğın semantik oppozisiyanı mətndə gerçəkləşdirir – "Yağış yanğınla odu söndürənlərin arasında elə bir sədd yaradırdı ki, bundan odun, alovun təsir gücü xeyli azalır, işləyənlər daha cürətli dururdular. "- cümlədə yanğın və onun söndürülməsi, od, yanğın və yağış bir-birinə əkslik təşkil edir və semantik oppozisiyanın nümunəsi kimi göstərilə bilər.

✓ Yanğın sözü mətndə metaforik bir ifadə yaratmışdır – "Yanğın dəli bir acıqla qəhqəhələr çəkib bütün şiddəti ilə davam edirdi."-

✓ "Alovun dili qısalırdı" - metaforik məqamda işlədilib. Mətndə işlənən bu metaforlar mətnyaradıcı işarə kimi çıxış edir. Mətndə effekt yaradır. Metaforik informasiya ötürür.

✓ Mətndə istifadə olunan antonimlik – yandırmaq, söndürmək, yağış mətnin əsasını komponentləri yaratmışdır.

✓ Epik janrın yaranmasında Əbülhəsənin "Dünya qopur" romanından götürülmüş bu mətn parçasının rolu böyükdür.

✓ Yanğın sözü mətndə emosiyaları üzə çıxarır. İnsanlar arasında təşviş yaradır. Onların bu vəziyyətdəki psixoloji durumlarının incəliklərini oxucuya sərgiləyir.

✓ Yanğın vahidi mətndə obrazların təsəvvüründə və təfəkküründə hər bir fərd üçün özünəməxsus şəkildə dərk edilir.

✓ Yanğın sözü mətndə üç funksiyanı məharətlə yerinə yetirmişdir:

1. Hadisələr arasında sərhəd yaratma
2. Süjet yaratma funksiyası
3. Janr yaratma funksiyası

1. Mətndə təsvir olunan müxtəlif hadisələr arasında sərhədlərin fərqləndirilməsində yanğın sözünün roluna diqqət yetirək: Yanğın sabah yaxın daha da genişlənir və camaat da bilirdi ki, Həmzənin zirzəmisi dövlətlə yetimxana şeyləri ilə doludur və onları yanğından qurtarmaq lazımdır. Yanğın sözü mətndə bu iki hadisəni əlaqələndirir. Yəni Həmzənin zirzəmisindəki var - dövləti, yetimxana şeylərini yanğın səbəbindən xilas etmək lazımdır.

2. Yanğın, od, alov, güllə - sözləri mətnin süjetinin qurulmasında iştirak edən əsas

vahidlərdi.

3. Eyni zamanda mətndə işlənən sözlər, hadisələrin təsviri, sözlərin işləm məqamları mətnin janrını müəyyənləşdirir.

✓ Yanğın sözünün sistem mənalarına diqqət yetirək:

Yanğın. is. 1. Binanı, əmlakı, ümumiyyətlə, yana bilən hər şeyi geniş miqyasda qaplayıb məhv edən alov, atəş, habelə yanma prosesinin özü. 2. Yanğın dəstəsi – yanğını söndürmək üçün ixtisaslaşmış şəxslərdən ibarət dəstə. 3. Yanğın maşını – yanğını söndürmək üçün qüvvətli nasoslarla təchiz olunmuş maşın. 4. Məc.: Geniş sahələrə yayılan hər tərəfi qavrayan bir hadisənin güclü təzahürü ,inkişafı haqqında.

✓ Yanğın sözü terminoloji sistemdə də özünə yer tapmışdır.

✓ Yanğın sözü mətndə - söndürmək - yerinə qurtarmaq – sözlərinin yanında gələrək obyektə münasibət, obyektin çıxış nöqtəsini və s bildirir.

**Məqalənin aktuallığı.** İlk dəfə olaraq Azərbaycan bədii mətnləri əsasında tibbi və hərbi terminlərin mətnyaratmada imkanları nəzərdən keçirilir. Həmin terminoloji vahidlərin semantikasına da toxunulmuşdur. Məqalənin aktuallışını bu və ya digər amillər şərtləndirir

**Məqalənin elmi yeniliyi.** Birinci dəfə olaraq terminoloji vahidlərin, mətndaxili əlaqələrin yaranmasındakı rolu əsaslandırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədris tətbiq olunma ölçüləri ilə reallaşır. Tələbələr, magistrantlar bu məqsədlə həmin məqalədən istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. IV cild, Bakı: Şərq-Qərb, 2006.
2. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 2016.
3. Abdullayev K., Məmmədov A., Musayev M. və b. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı: Mütərcim, 2012.
4. Babanlı V. Vicdan susanda (roman). Bakı: Çinar-Çap, 2008.
5. Əbülhəsən. Seçilmiş əsərləri. Dünya qopur (roman). Bakı: Azərnəşr, 1984.
6. Məmmədov A. Mətn yaranmasında formal formal əlaqə vasitələrinin sistemi. Bakı: Elm, 2001.
7. Məmmədov A., Məmmədov M. Diskurs tədqiqi. Bakı, 2013.
8. Novruzova Nuridə. Mətn sintaksisi. Bakı: Təhsil, 2002.
9. Sadıqova S. Azərbaycan dili terminologiyasının nəzəri problemləri. Bakı: Elm, 2002.
10. Kazımov Q. Müasir Azərbaycan dili (Sintaksis). Bakı: Ünsiyyət, 2000.
11. Kazımov İ. Fonetikadan mətnə doğru (Türk dillərinin müqayisəli sintaksisi). Bakı, 2018.

**Ф. Юсифли**

## Роль терминов в формировании текста

## Резюме

В статье определяется роль текстообразующих средств, внутри этих средств показывается участие морфологических, лексических средств в процессе текстообразовании. Обоснован текстообразовающий потенциал, текстообразующий

активность и интенсивность этих терминов как лексико-терминологических средств.

**F. Yusifli**

## The role of terms in the process of texture

## Summary

In this article is dealing with the means which used in formation texts, almond these is shown the role of lexical, morphological means in process of texture. The terms potential, activity in creation of texts are based as a lexical-terminological means.

**Redaksiyaya daxil olub:** 27.04.2018